Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Regionların inkişafının Dövlət proqramları və bölgələrdə sahibkarlığın durumu...

## Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

**2004-cü ildən uğurla icra olunan bu proqramlar davamlı olaraq, bir-birinin ardınca həyata keçirilməkdədir. Hazırda regionların inkişafı üzrə sayca 4-cü dövlət proqramı icra edilir.**

Azərbaycan Prezidenti İlham Əliyevin 29 yanvar 2019-cu il tarixli 500 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023- cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi regionların, o cümlədən kənd yerlərinin sosial-iqtisadi inkişafı sahəsində görülmüş işlərin növbəti illərdə də davam etdirilməsi, eləcə də infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, yerlərdə yaşayan əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsidir.

Ümumilikdə "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasına ən azı 17 milyard manatdan çox vəsaitin sərf edilməsi nəzərdə tutulur.

### Ümumi problem ondan ibarətdir ki, regionlardan paytaxta güclü axın var

Sosial-iqtisadi inkişafı şərtləndirən əsas faktorlar regionlarda biznes mühitinin, sahibkarlığın inkişaf etdirilməsi, bu sahənin təşviqindən ibarətdir. Bununla bağlı müxtəlif layihələr, proqramlar mövcuddur. Bu istiqamətdə qəbul edilən sənədlərin mahiyyəti də regional xarakterli parametrləri özündə əks etdirir. Həmin sənədin mahiyyəti regionlara investisiya qoyuluşunun təşviqi istiqamətindədir. Amma hər hansı bir faktorla regionlarda biznes mühitini inkişaf etdirmək olmaz. Bəzi ekspertlər hesab edirlər ki, bu inkişaf proqramlarına ayrılan vəsait regionlarda sahibkarlığın inkişaına adekvat deyil. Yəni sahibkarlıq lazım olan səviyyədə inkişaf etməyib. Bunun səbəbini icra hakimiyyəti strukturlarının müdaxilələrində görənlər də az deyil. Hesab edilir ki, bu amil liberal fəaliyyət imkanları məhdudlaşdırılmaqda davam edir, regionların sosial-iqtisadi inkişafı üzrə proqramların effektivliyini də aşağı salır. Bəzi regionlarda infrastruktur formalaşdırıldı, amma həmin infrastruktur iş yerlərinin yaranmasına, ümumi daxili məhsulun artmasına, sahibkarlığın inkişafına, insanların paytaxta doğru təmərgüzləşməsinin qarşısının alınmasına gətirib çıxarmadı.

Görürük ki, aktivlik var, inşaat gedir, sahibkarlara yardımlar və digər müavinətlər verilir. Ancaq ümumi problem ondan ibarətdir ki, regionlardan paytaxta güclü axın var. Bunun qarşısını almaq lazımdır. Bu gün hansısa subsidiyanı alaraq regiondakı işi tamamlamamış Bakıya köçmək effekt verməyəcək. Bu gün yerlərdə sosial-iqtisadi inkişafı tamamlaya biləcək məqam insanların regionlarda qalmasıdır. Bu prosesi sözdə yox, reallıqda edə bilsək, regionların sosial-iqtisadi inkişafı ilə bağlı effektlik ciddi şəkildə artacaq. Bütün görülən işlər də o zaman səmərəli olacaq.



### Sahibkarlıq subyektlərinin gəlirlərinin artması, büdcə gəlirlərinin regional diversifikasiyasına müsbət təsir göstərir

İqtisadçı Günay Hüseynova "Bakı-Xəbər"ə bildirdi ki, statistik göstəricilər regionlardakı sahibkarlıq fəaliyyətində irəliləyişin nəzərə çarpdığını təsdiqləyir: "Vergi daxilolmalarına nəzər saldıqda görərik ki, bu göstərici cəmi bir neçə il ərzində xeyli artıb. İxtiyari iki il ərzində olan fərq, ikirəqəmli artımı göstərir. Nümunə üçün qeyd edə bilərik ki, məsələn, 2018-ci illə müqaisədə 2020-ci ildə regionlardan vergi daxilolmalarında 23,1 faiz artım müşahidə olunub, mərkəzləşdirilmiş büdcədən dotasiya almadan belə öz gəlirlərini yerli mənbələr hesabına təmin edən rayonların sayı 41-ə çatıb. Bu artım sonrakı illərdə də dinamik şəkildə davam edib və mövcud son statistik göstəricilər daha qənaətbəxşdir. Son dövrlərin göstəriciləri təsdiq edir ki, 2003-cü illə müqayisədə, yəni Dövlət Proqramlarının, daha dəqiq desək, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarının qəbulundan sonra regionlar üzrə vergi daxilolmaları dəfələrlə artıb.

Azərbaycanda qeyri-neft sektorunun inkişafında əsas prioritet sahələrdən hesab olunan kənd təsərrüfatı, turizm, informasiya-kommunikasiya texnologiyaları, emal sənayesi sahələrində son illərdə dinamik irəliləyiş nəzərə çarpıb. Təbii ki, bu irəliləyiş də təsadüfi deyil və dövlət dəstəyinin rolu danılmazdır. Kənd təsərrüfatının subsidiyalaşdırılması, vergidən azad olmalar, texnika və gübrələrin güzəştli şərtlərlə verilməsi, investisiyaların və ixracın təşviqi həmin dəstəyin, dövlət dəstəyinin baruz nüminəsidir və məhz bu dəstək sayəsində regional inkişafın sürətlənməsinə nail olunur. Vergiödəyiciləri tərəfindən təqdim edilən dövriyyə məbləğlərinin, eləcə də aktiv ƏDV ödəyicilərinin sayının artması bir çox məqamlara aydınlıq gətirir və ilk növbədə iqtisadi aktivliyin daha da artdığını isbatlayır. Sözsüz ki, iqtisadi aktivliyin və sahibkarlıq subyektlərinin gəlirlərinin artması, ilk növbədə büdcə gəlirlərinin regional diversifikasiyasına müsbət təsir göstərir, digər tərəfdən isə regionların maliyyə imkanlarının yaxşılaşmasına əsaslı zəmin yaradı və geniş imkanlar açır. Ümumiyyətlə, belə bir nəticəyə gəlirik ki, regionların sosial-iqtisadi inkişafının bütövlükdə ölkə iqtisadiyyatı üçün əhəmiyyəti böyükdür və bu baxından da dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı ilə təmin edilibdir".

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**